Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**



# Ermənilər Laçında əsrlərlə yaşı olan Həmzə Soltan sarayını yerdən necə sildilər...

**Uzun illər Ermənistanın işğalı altında olan Laçın rayonunda da abidələrimizə qarşı həm vandalizm aktları törədilib, həm də abidələrin bir qisminə qarşı saxtalaşdırma kampaniyası aparılıb. Həmzə Soltan sarayı da erməni vandalizminin qurbanlarından olan abidələrimizdəndir.**

**"Alban dövrü memarlıq abidələrinin qalıqları..."**

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, Həmzə Soltan Sarayı adlanan bu abidə, əslində, VI-VII əsrə aid alban məbədidir və bu, birbaşa alban memarlığı üslubunda inşa edilib. Laçın rayonunun Soltanlar (bu kəndin bir neçə adı olub) kəndində mövcud olmuş bu abidənin tarixinin qədim olduğunu vurğulayan F.İsmayılov qeyd etdi ki, uzun illər bu abidədən ermənilər öz məqsədləri üçün yararlanıblar: "El arasında Laçın rayonunun Sultanlar kəndi kimi tanınan inzibati yaşayış məntəqəsi (müəyyən dövrlərdə Əsədlər, Əsədsultanlar, müəyyən dövrlərdə isə Hüsülü adlandırılıb) uzun illər Qaraçorlu mahalının mərkəzi kimi fəaliyyət göstərib. Qaraçorlu mahalı tərkibində bir neçə tayfa icması və kənd camaatı cəmlənib o dövrdə. Qaraçorlu mahalının ən böyük icması Hacısamlı camaatı olub.

Sultanlar kəndini Kosalar kəndindən (Ağoğlan monastırından Laçın-Minkənd yolu istiqamətində) Həkəri çayının Minkənd qolunun axarının əksi istiqaməti ilə 1500 metr məsafə ayırır. Kənd Azərbaycan tarixinin öyrənilməsi baxımından olduqca maraqlı və əvəzsiz bir ərazidir. Burada hündür dağ silsiləsinin ətəyində böyük saray komplekslərinin qəbirüstü abidələri və qəbir daşlarının, eləcə də Alban dövrü memarlıq abidələrinin qalıqları mövcud olub".

**"Bu sənədə görə..."**

F.İsmayılovun sözlərinə görə, bir çox mənbəyə əsasən, Zəngəzur vilayətinin Qaraçorlu mahalı uzun illər Sultanlar kəndindən idarə olunub. Onun dediyinə görə, 1727-ci ilə aid olan Osmanlı arxivlərində Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərində qaraçorlular haqqında qiymətli məlumatlar saxlanır. "Azərbaycan Dövlət Tarix Arxivində saxlanan (F.24, siyahı 1, saxlama vahidi 142) 1823-cü ilə aid Qarabağ əyalətinin kameral təsviri adlı sənəddə Qaraçorlu mahalı haqqında məlumat var. Bu sənədə görə, 7 kənddən ibarət olan Qaraçorlu mahalında qaraçorlu, şeylanlı, gəloxçu, təhməzli, şadmanlı, yurdaxlı tayfalarının yaşadığı qeyd olunur və bu tayfaların hamısı indi də mövcuddur.

Qaraçorlu tayfaları Osmanlı dövlətinin tərkibində idi. Qaraçorlu mahalı 1730-cu ildə Osmanlı dövlətinin tərkibinə qatılmaq barədə saziş bağlamışdı. Sazişin şərtlərinə görə, mahaldan toplanan vergilərin yarısı Osmanlının Gəncə xəzinəsinə verilir, qalan yarısı isə qaraçorluların sərəncamında qalırdı. Qaraçorlu camaatı Səfəvi dövründə Osmanlı dövləti ilə olan əlaqələrindən dolayı Səfəvi xəzinəsinə vergi ödəmirdi. Qaraçorlu mahalı Nadir şah Əfşarın hakimiyyətinə qədər yarımmüstəqil həyat tərzi sürüb".

**"İki saray kompleksi olub"**

O qeyd etdi ki, Nadir şah Qaraçorlu mahalını osmanlılardan geri almaq üçün 1735-ci ildə hücum edərək mahalın başçısı Rüstəm bəy Qaraçorlunu öldürüb, mahalı öz tərkibinə qatmışdı. Bu barədə tarixçi Mir Mehdi Xəzaninin "Qarabağnamə" əsərində müfəssəl məlumat verildiyini deyən ekspertin sözlərinə görə, o dövrdə Sultanlar kəndi ciddi dağıntıya məruz qalmışdı. "Belə ki, inzibati binalar tamamilə dağıdılaraq yerlə yeksan edilmişdi. Böyük ehtimalla mahalın ilk saray kompleksi də Nadir şahın qoşunları tərəfindən dağıdılmışdı.

Ehtimala görə, vaxtilə 400 yaşayış evi olan bu yaşayış məntəqəsində iki saray kompleksi olub. Bu sarayların birincisi "Soltan Əhməd", bəzən də "Soltan Əjdər" sarayı adlandırılırdı. Sarayın bu adları daşıması maraqlı hadisədir. Çünki bu kəndin tarixində nə Sultan Əhməd və nə də Sultan Əjdər barədə məlumatlara rast gəlinmir. Mahalın üsyankar rəhbərinin adı isə Rüstəm olub. Bu sarayın dəqiq tikilmə tarixi, parametrləri, ümumi görüntüsü hələlik elmə məlum deyil".

**"Bu, alban dövrünün abidəsidir"**

F.İsmayılovun sözlərinə görə, əslində, Həmzə Sultan sarayı adlandırılan bu abidə ətrafında ermənilər müəmmalı vəziyyət yaradıb və abidənin bir alban abidəsi olduğunu itirmək istəyiblər: "Bu, alban dövrünün abidəsidir. Sarayın mühafizə divarları yaxınlığında Qafqaz Albaniyası dövrünə aid ikimərtəbəli bazilika mövcud olub. Bu bazilikanın qalıqları dövrümüzə qədər gəlib çatıb.

Nadir şahın qələbəsindən sonra qaraçorluların Qarabağdan köçü başlamış, onların bir qismi Qaradağ mahalına, bir qismi isə Dərələyəz mahalına köçüb. Qaraçorlu elinə Nadir şah Həmzə Sultan Hacısamlını başçı təyin edib. Həmzə Sultan həm elin minbaşısı, həm də mahalın naibi olmuşdu.

1747-ci ildə Nadir şahın ölümündən sonra Qaraçorlu mahalı yeni yaranan Qarabağ xanlığının tərkibinə qatılıb. 1761-ci ildə Qaraçorlu elinin başçısı Həmzə Sultan Hacısamlı özünə köhnə saray qalıqları üzərində, daha müasir bir saray binası inşa etdirmişdi. Bundan sonrakı bütün dövrlərdə Sultanlıq rus işğalına qədər qədim Zəngəzur vilayətinin əsas mərkəzlərindən biri kimi Qarabağ xanlığının tərkibində olmuşdu".

**"Həmzə Soltan sarayı 1992-ci il erməni işğalından sonra öz mövcudiyyətini..."**

"Təəssüflə qeyd etmək lazımdır ki, bu sarayın memarlıq quruluşu barədə heç bir rəsmi məlumat mövcud deyil.

1992-ci il erməni işğalından öncə apardığımız müşahidələr zamanı kompleksin uçuqları arasında sarayın ətrafı qalın qala divarları ilə çevrələndiyi açıq görünürdü. Sarayın ümumi mənzərəsindən aydın olurdu ki, qəsrin hündür qülləsi olub. Qəsrin cənub tərəfinin küncündə giriş qapısının qalıqları var idi. Gözəl tağlı tavanları qalın yan divarlara bərkidilən saray əyanlarının istifadə etdikləri evin ikimərtəbəli olduğu güman edilir. Çünki saray yanaşı tikildiyi alban bazilikasından alçaq görünə bilməzdi. Saray geniş və böyük zala, xeyli sayda yardımçı otağa və divanxanaya malik olub.

Sovet dövrü sarayın qalıqları baxımsızlıq üzündən həm bəzi insanlar tərəfindən istismar edilir və həm də ciddi təbii dağıntılara məruz qalırdı. Həmzə Soltan sarıyı 1992-ci il erməni işğalından sonra öz mövcudiyyətini tamamilə itirdi. Belə ki, bütün saray qalıqları ermənilər tərəfindən ərazidən götürüldü. Kənddə salamat qalan sarayın mühafizə divarları yaxınlığındakı Qafqaz Albaniyası dövrünə aid bazilikanın yalnız bir hissəsi olub ki, bunu da ermənilər təmir edərək tanınmaz hala salıblar" - deyə F.İsmayılov vurğuladı.

**"Gələcək tədqiqatlar nəticəsində üzə çıxarmaq mümkün olacaq"**

F.İsmayılovun sözlərinə görə, bu abidənin oxşarı Xənəzək (Xantsax) kəndindədir. O qeyd etdi ki, Xənəzək kəndindəki bu oxşar abidənin yan tərəfində tağların olmadığını, adi divar olduğunu görürük. "Bu müqayisə Sultanlar kəndindəki bazilikanın Həmzə Soltan sarayının olmadığını sübut edir. Xənəzək kəndində keçən əsrin 30-40-cı illərinə qədər azərbaycanlılar yaşayıb, bu kəndi Sultanlardan cəmi 12 kilometr məsafə ayırır. Belə bir yaxınlıq, istər-istəməz, əhalinin adət-ənənələrində yaşayış evlərinin tikinti quruluşunda eyniliyi və ya oxşarlığı yaradan amillərdən biridir.

Bu abidəyə tamam başqa bir rakursdan yanaşanda belə onun saray kompleksinə uyğunluğu hiss olunmur. Güman edirik ki, erməni işğalından azad olan Sultanlar kəndində Həmzə Sultan sarayını gələcək tədqiqatlar nəticəsində üzə çıxarmaq mümkün olacaq.

1992-ci il işğalından sonar, 2007-ci ildə Sultanlar kəndinin adını dəyişərək "Melikatun" adlandırdılar. Onlar bu bazilikanı təmir edərək, işğal dövrü otel kimi istifadə edirdilər. Bazilikanın birinci mərtəbəsindəki otağın ölçüsü: eni 3,9 metr, uzunluğu 6,6 metr, hündürlüyü 3,65 metr, ikinci mərtəbə - eni 3,9 metr, uzunluğu 6,2 metr, hündürlüyü 3,9 metr, divarın qalınlığı 1,2 metrdir.

İşğal dövrü ermənilər Sovet dövrü "Həmzə Soltan" sarayı adlandırdıqları abidəni təmir edərək turistlərin qonaq evi (otel) kimi istifadə edirdilər.

Ermənilər abidəni təmir edərək abidəyə onun orijinal görkəminə uyğun olmayan yeni bir görkəm verdilər.

Sarayın arxasında işğal dövrü ermənilər tərəfindən inşa edilən ikimərtəbəli müasir ev, abidənin ümumi quruluşunu və mövcud olmuş landşaftını korlayır.

Ermənilər yaratdıqları otelin həyətinə qəbiristanlıqdan gətirdikləri bir at və bir qoç heykəli qoydular. Ermənilər bu abidənin erməni mədəniyyətinə aid olduğunu təbliğ edərkən bu daş fiqurlarının erməni tarixinə və mədəniyyətinə aid olmadığını, görünür, heç vaxt düşünməyiblər.

Maraqlıdır ki, ermənilər abidənin təmiri zamanı özlərinin tərtib etdikləri bu yeni eskiz layihəsinə deyil, Sovet dövrü "DQMV"-nin Abidələrin Bərpası İdarəsinin hazırladığı eskiz layihəsinə üstünlük verdilər.

44 günlük İkinci Qarabağ müharibəsi zamanı Sultanlar kəndi də azad edildi. Bu kənddə olan kurqanlar, bədii daş nümunələri, türbələr və qəbirüstü abidələr, su dəyirmanları yenidən Sultanlar camaatının istifadəsinə veriləcək. Soltanlar kəndinin etnik tərkibi bütün tarixi dövrlərdə azərbaycanlılardan ibarət olub. Əhalinin əsas məşğuliyyəti bostançılıq, bağçılıq və heyvandarlıq idi. Əhalinin yaşayış evləri əvvəllər qara damlardan və sonralar müasirləşən bir və ya ikimərtəbəli yaşayış evlərindən ibarət idi" - deyə F.İsmayılov qeyd etdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**